

# Mənim hüququm var, sənin hüququn var, onun hüququ var ...

Uşaq hüquqları ilə tanışlıq

*Hər kəsin hüquqları vardır. Bundan əlavə, 18 yaşa çatmamış oğlan, yaxud qız olaraq sizin spesifik hüquqlarınız vardır. Bu hüquqların siyahısı, eləcə də sizin bu hüquqlardan yararlanmanıza yardım etmək üçün hökumətlərin həyata keçirməli olduqları tədbirlər Birləşmiş Millətlər Təşkilatının 1989-cu il tarixli Uşaq Hüquqları Konvensiyasında göstərilir.*

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# Sizin yaşamanız, qorunmanız vəinkişafınız

- Siz, sizə aidiyyəti olan bütün qərarların qəbul edilməsi zamanı maraqlarınızın qorunması və məsələn, mənşəyiniz, fikriniz, etiqadınız vəya cinsinizəgörə heç bir ayrı-seçkiliyəməruz qalmamaq hüququna maliksiniz.
- Sizin yaşamaq, vəbalanslaşdırılmış vəsağlam fiziki, əqli, ruhi, mənəvi vəsosial inkişaf hüququnuz vardır.
- Sizin yemək, geyinmək, evlətəmin edilmək vəsağlam qayğı kimi əsas ehtiyaclardan yararlanmaq hüququnuz vardır.
- Sizin ailədəvəuşaq evlərindəbaş verən hallar daxil olmaqla istismarın, təhqirin vəfiziki vəpsixoloji zorakılığın bütün formalarından qorunmaq hüququnuz vardır.
- Şəxsiyyət, istedad və bacarıqlarınızın mümkün olduğu qədər inkişafını təmin etmək üçün sizin mükəmməl təhsil almaq hüququnuz vardır. Təhsiliniz sizə başqalarının hüquq vəazadlıqlarına hörmətləyanaşmağı öyrətməli vəsizi bütün insanlar arasında anlaşma, tolerantlıq, bərabərlik və dostluq əhval ruhiyyəsinin hökm sürdüyü azad cəmiyyətdəmüstəqil yaşamağa sövq etməlidir.
- Sizin geniş şəkildəobyektiv informasiya almaq hüququnuz vardır.
- Əgər sizin əqli, yaxud fiziki qüsurunuz vardırsa, cəmiyyətəqoşulmanız, şəxsi baxımdan inkişaf etməniz və maksimal şəkildə özünüzü idarə edə bilməniz üçün ləyaqətli həyat keçirmək hüququnuz vardır.
- Sizin dincəlmək, asudəvaxt keçirmək, oynamaq vəistirahət etmək, yaşınıza uyğun olan mühitdə bədii vəmədəni fəaliyyətlərləməşğul olmaq hüququnuz vardır.



# Sizin kimliyiniz, özəl həyatınız və ailəniz

- Sizin ada, vətəndaşlığa malik olmaq və öz kimliyinizi qorumaq hüququnuz vardır. əgər siz etnik, dini və ya dil baxımından azlıq təşkil edən millətlərə mənsubsunuzsa, siz öz mədəni həyatınıza sadiq qalmaq, öz dininizə etiqad etmək, yaxud öz dilinizdə danışmaq hüququndan məhrum edilə bilməzsiniz.
- Sizin özəl həyatınızı qorumaq hüququnuz vardır. Heç kim qanunsuz şəkildə sizin, yaxud ailənizin özəl həyatınıa müdaxilə edə bilməz. Sizin eviniz, yazışmalarınız, şərəf və ləyaqətiniz qanun tərəfindən qorunur.
- Valideynləriniz sizin tərbiyə və inkişafınızda birgə məsuliyyət daşıyırlar. Onların hüquqlarınızdan istifadəetmək vəöhdəliklərinizi yerinəyetirilmək sahəsindəsizəyol göstərmək hüquqları vəvəzifələri vardır.
- Sizi maraqlandıran qədər valideynlərinizin kim olduğunu bilmək vəonlar tərəfindən tərbiyə olunmaq hüququnuz vardır.
- Sizin valideynlərinizin harada olmasını bilmək vəonlarla birlikdəolmaq üçün başqa ölkəyəgetmək hüququnuz vardır. Valideynləriniz dəsizəqarşı eyni hüquqa malikdirlər.
- Boşanma halında, valideynlərinizləqohumluq əlaqənizəaidiyyəti olan bütün qərarlar barədəsizdən məsləhət alınması hüququna maliksiniz. əgər siz valideynlərinizdən, yaxud onlardan birindən ayrı yaşayırsınızsa, onları müntəzəm görmək hüququna maliksiniz (sizin maraqlarınıza zidd olan hallar istisna olmaqla).
- Övladlığa götürməyəsizin maraqlarınıza uyğun olduğu halda icazəverilə bilər.



# Sizin azadlıqlarınız

- Fikir azadlığı: bunu etməyə qadir olduğunuz zaman, sizə aidiyyəti olan istənilən hadisəyə münasibət bildirmək hüququ verilir. Sizin fikriniz nəzərəalınmalıdır.
- Söz azadlığı: sizin öz fikrinizi azad şəkildəbildirmək vəməlumatları axtarmaq, almaq vəyaymaq hüququnuz vardır.
- Fikir, vicdan vədin azadlığı.
- Toplaşmaq azadlığı: sizin digər şəxslərəbir yerətoplaşmaq vətoplantılarda iştirak etmək hüququnuz vardır.

Bu azadlıqlar üzrə məhdudiyyətlər mövcuddur. Siz başqalarının hüquq və azadlıqlarına hörmətlə yanaşmalı və cəmiyyətəvəya özünüzətəhlükəyaratmamalısınız.

## Siz vədövlət

- Dövlət sizin müəyyən edilmiş hüquq vəazadlıqlarınızdan yararlanmanız üçün əlindən gələni etməlidir
- Dövlət sizi qorumalı vərifahınızı təmin etməlidir. O, sizin maraq vərifahınızın keşiyindədayanan təsisat vəxidmətlər yaratmaqla valideynlərinizə, yaxud qayğınızı çəkən şəxslərəköməklik göstərməlidir.
- Əgər siz ailənizlə yaşaya bilmirsinizsə, onda dövlət sizi müdafiə etməli və sizə yardım göstərməlidir. Dövlət, sizin keçmişinizi və mədəniyyətinizi nəzərə alan həll yolları tapmalıdır; və siz durumunuzun müntəzəm şəkildə yoxlanması hüququna maliksiniz.
- Dövlət qeyri-qanuni narkotik vasitələrin qəbulu iləbağlı təhlükələrdən sizi qorumaq üçün tədbirlər görməlidir.
- Əgər siz zorakılıqdan əziyyət çəkirsinizsə, dövlət sizə kömək etməli və normal həyata qayıtmanız üçün yardım göstərməlidir.
- Sizin ədalət məhkəməsinə üz tutmaq hüququnuz vardır. Dövlət ədalət sisteminin sizin konkret hüquq və ehtiyaclarınıza uyğun gəlməsini təmin etməlidir.
- Siz işgəncə, yaxud qəddar vəya qanunazidd cəzalara məruz qalmamalısınız.
- Sizi ömürlük həbs edəvəya edam edəbilməzlər.
- Sizi qeyri-qanuni həbs edəbilməzlər. Azadlıqdan məhrumetməson mümkün seçim olmalıdır. Bu, mümkün olduğu qədər qısa olmalı və sizin ehtiyac və yaşınız nəzərə alınmalıdır. Azadlıqdan məhrumedilmə zamanı daha yaşlı məhbuslardan ayrı saxlanmalısınız, vəmaraqlarınız dairəsindəmüstəsna hallar istisna olmaqla sizin ailəniz iləəlaqə saxlamaq hüququnuz vardır.
- Müharibədövründədövlət sizin müdafiəetməli vəqayğınıza qalmalıdır. Əgər siz 15 yaşına çatmamışsınızsa, sizi heç bir silahlı qüvvələrdəxidmətə cəlb etmək olmaz.

Beynəlxalq konvensiyalar dövlətlər arasında müqavilərolunu oynayır. Bu müqavilələr riayət edilməli olan qaydalar irəli sürür, lakin onlar eyni zamanda dövlətləri uşaqlar üçün hələ də böyük əhəmiyyət kəsb edən tədbirlər görməyə sövq edir. Əgər ölkənizin qanunu sizin üçün konvensiyaya nisbətən daha münasibdirsə, onda tətbiq edilməli olan milli qanundur.

## Beynəlxalq təşkilatlar vəsiz

Dövlətlər çoxlu sayda beynəlxalq təşkilatlar yaratmışlar. Birləşmiş Millətlər Təşkilatı və Avropa Şurası kimi bəzi təşkilatlar insan hüquqlarını müdafiə etmək, münaqişələrin qarşısını almaq və daha ədalətli və daha da çiçəklənən vədemokratik cəmiyyətlər qurmaq üçün yaradılmışdır. Demək olar ki, bütün beynəlxalq konvensiyalar bu təşkilatlar tərəfindən işlənib hazırlanmışdır. Sözügedən təşkilatlar dövlətlərin onlar tərəfindən müəyyən edilmiş hüquqlara hörmət etmələrini təmin etmək üçün tədbirlər görürlər.

Uşaq Hüquqları üzrə KomitəBirləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları haqqında Konvensiyasının tətbiqinə nəzarət edir. Siz ölkənizlə bağlı komitənin irəli sürdüyü tövsiyələrlətanış ola bilərsiniz.

Uşaqlar, həmçinin Avropa Şurasının İnsan Hüquqları Məhkəməsi qarşısında iddia ilə çıxış edə bilərlər. Məsələn, Məhkəmə həbsxana, məktəb vəevdəuşaqları cismani cəzadan qoru-mayan bir ölkəyəqarşı qərar çıxarmışdır. Digər bir ölkənin təkbaşına səyahət edən qızalazımi diqqət yetirmədiyi aşkar edilmişdir.



# Əgər sözügedən hüquqlara hörmət edilməzsə, nəbaş verəbilər?

Müəyyən hüquqların yerinə yetirilməsinə, məsələn sizi böyük təhlükədən qorumaq, yaxud sizin kamillik və ya yetkinlik yaşına çatmanız nəzərə alınmaq kimi üzürlü səbəblərdən məhdudiyyət qoyula bilər. Yaşamaq, təhsil, sağlamlıq və zorakılıq, və ya istismara qarşı müdafiə kimi bəzi hüquqları hətta valideyn və ya müəllimlər tərəfindən belə heç vaxt məhdudlaşdırmaq olmaz. əgər siz hüquqlarınızın pozulduğunu fikirləşirsinizsə, onda siz:

- valideynləriniz, müəllimləriniz, həkimləriniz, dostlarınız, ictimai işçilər, yaxud sizə qayğı göstərən şəxslər kimi etibar etdiyiniz insanlarla danışa bilər;
- sizə məsləhət verə biləcək şəxslə danışmaq məqsədilə zorakılıq qurbanı olan uşaqlar üçün nəzərdə tutulmuş xüsusi telefon nömrəsinə zəng edə bilər;
- polis məntəqəsinə gedə, şikayət edə və dövlətdən yardım istəyə bilər
- uşaqların işləri üzrə müvəkkillə (ombudsman), yaxud uşaq hüquqlarını müdafiə edən könüllü cəmiyyətlə əlaqə saxlaya;
- yaxud müəyyən hallarda Avropa Şurasının İnsan Hüquqları Məhkəməsinə müraciət edə bilərsiniz.



AVROPANI UŞAQLAR ÜÇÜN VƏ ONLARLA BİRGƏQURMAQ









# Avropa Şurası

Avropa Şurası 1949-cu ildə təsis edilmiş və hazırda 47 üzv dövlətə malik beynəlxalq təşkilatdır. Onun rolu insan hüquqlarını, demokratiyanı və qanunun aliliyini dəstəkləməkdən ibarətdir. Sözügedən təşkilat İnsan Hüquqları haqqında Avropa Konvensiyasına və əlbəttə ki, Avropanın 150 milyon uşağını əhatə edən insanların qorunmasına dair digər konvensiya və tövsiyələrə əsaslanan ümumi demokratik prinsipləri yaradır.

“Avropanı Uşaqlar üçün vəOnlarla BirgəQurmaq” proqramı uşaqların hüquqlarını dəstəkləmək və onları zorakılıqdan müdafiə etməklə bağlıdır. Proqramın məsul işçiləri evdə və məktəbdə zorakılıq insan hüquqları və təhsil uşaqlar və internet uşaqlar və ədalət sistemi kimi məsələlərlə məşğul olur. Bizim konvensiyalar, toplantılar və nəşrlərə dair daha ətraflı məlumat almaq üçün , yaxud "Wild Web Woods" interaktiv oyunumuzla tanış olmaq üçün internet saytımıza daxil ola bilərsiniz.

"Avropanı Uşaqlar üçün və
Onlarla BirgəQurmaq”
Avropa Şurası
F-67075 Strasbourg Cedex
www.coe.int/children
children@coe.int

Hazırkı sənəd Finlandiya Hökumətinin dəstəyi sayəsində ərsəyə gəlmişdir.

SWE– © Council of Europe – Illustration: Eric Puybaret